## Asan Ödəniş Sistemi
## Təchizatçılar üçün istifadə təlimatı

Təchizatçı aidiyyatı tenderə daxil olduqdan sonra “İştirakı qəbul et” düyməsini sıxır.




Təchizatçı ödəniş etmədən tenderin əsas şərtlər toplusunu əldə edə və tender üzrə təklifini təqdim edə bilməz.



Satınalan təşkilat tərəfindən müəyyən edildiyi halda tenderdə iştirak haqqı ödənişini etmək üçün “ASAN ödəniş” sistemi vasitəsilə ödəyin düyməsi sıxılır.




Yeni pəncərədə “Asan ödəniş” sistemi açılır və ödəniş haqqında məlumatlar əks olunur. Məlumatları yoxlayaraq düzgün olmasından əmin olduqdan sonra “Davam et” düyməsi sıxılır.



Bu səhifədə bütün xanalar məcburidir. Xanalar doldurulduqdan sonra “Təsdiqlə” düyməsi sıxılır.




Kart məlumatları düzgün təqdim edildiyi və balansda kifayət qədər vəsait olduğu halda ödəniş tamamlanır və əməliyyatın təfsilatları ekranda əks olunur. “Geri” düyməsinə sıxmaqla müsabiqəyə qayıtmaq mümkündür.



Müsabiqədə İştirak haqqı hissəsində ödənişə keçid mövcud olacaqdır. Link vasitəsilə istənilən zaman ödəniş qəbzinə online rejimdə çıxış olacaqdır.
Ödəniş linki Portalda əks olunduğu anda, tenderinə əsas şərtlər toplusunu yükləmək və ya baxmaq, həmçinin tenderdər iştirak etmək üçün təklifləri göndərmək mümkün olacaqdır.




Keçid vasitəsilə Asan Ödəniş sistemində ödənişlə bağlı ətraflı məlumat əldə etmək olar. Qəbzi elektron poçt vasitəsilə istənilən ünvana göndərmək və ya çap etmək mümkündür.



Daxil edilən kart məlumatlarının düzgün olmadığı və ya balansda kifayət qədər vəsait olmadığı halda sistemdə ödəniş tamamlana bilmir. Bununla bağlı aşağıdakı səhifə formalaşacaqdır. Bu zaman geri düyməsini sıxaraq lota qayıtmaq lazımdır.




Tenderin vaxt çərçivələrinə diqqət etmək vacibdir. Satınalan təşkilat tərəfindən müəyyən edilən tarixlərdən (həm ixtisas göstəricilərinin, həm də tender təklifinin son təqdimedilmə tarixi) sonra ödənişlərin edilməsi Portalda məhdudlaşdırılır.



*Qeyd:*

- Ödəniş haqqında məlumat satınalan təşkilata hansı qaydada bildirilir?

Ödəniş edildikdən sonra satınalan təşkilat nəzarət panelində Tender sənədləri və ödəniş sənədləri bölməsində ödənişlə bağlı məlumatlar avtomatik əks olunur. Təchizatçı (malgöndərən) tərəfindən satınalan təşkilata əlavə məlumat verməyə ehtiyac yoxdur. Bu səhifədə Malgöndərənin (podratçinin) adı, ödəniş sənədinə keçid etmək ucun link, sənədin təqdimedilmə tarixi görülür.




- Satınalan təşkilat ödənişin tamamlanması haqqında məlumatı bankdan əldə edə bilmir. Bu zaman təchizatçı ödənişi yenidən etməlidir?

Asan Ödəniş sistemi vasitəsilə ödəniş ən gec 3 iş günü ərzində (ödənişin icra vaxtından asılı olaraq) yekunlaşdırılır.

Təchizatçı tərəfindən iştirak haqqı ödənişi uğurla başa çatdırıldığı halda yenidən ödəniş edilməsinə ehtiyac yoxdur.